**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

***№1 Sosial-siyasi elmlər seriyası 2022***

**UOT 44.14**

# ÖMÜRLÜK AZADLIQDAN MƏHRUMETMƏ CƏZA NÖVÜNÜN NƏZƏRİ VƏ İCRA MƏSƏLƏLƏRİ

**H.R.CƏFƏROV**
***Bakı Dövlət Universiteti***
***hcafarov@bk.ru***

*Məqalədə Azərbaycan Respublikası Cinayət qanunvericiliyinin cəza sistemində əks olunan ömürlük azadlıqdan məhrumetmə cəza növünün anlayışı, onun tətbiqi məsələlərinin mövcud problemləri, ölüm cəzası ilə oxşar və fərqli tərəflərinin müəyyən edilərək araşdırılması kimi məsələlərə həsr olunmuşdur. Azərbaycan Respublikası Cəza-İcra qanunvericiliyində həmin cəza növünün icra məsələləri, həmin kateqoriyadan olan məhkumlara tətbiq edilən və edilməyən rejim qaydaları araşdırılmışdır. Mövzu ilə bağlı geniş statistik məlumatlar araşdırılmış, həmçinin xarici ölkələrin nəzəri və praktiki yanaşması ilə müqaisə edilmişdir.*

**Açar sözlər:** cəzaların icrası məcəlləsi, cinayət məcəlləsi, cəza sistemi, ömürlük azadlıqdan məhrumetmə, ölüm cəzası, əfv etmə, məhkumların islah edilməsi, cəza çəkmə müəssisələri, həbsxana, məhkumların sayı, xarici ölkələrdə ömürlük azadlıqdan məhrumetmə.

Ötən illərlə müqayisə etsək, Azərbaycanda məhkumların sayının azalmasını qeyd etmək olar. Belə ki, 2015-ci ildə 24.000-dən çox məhkum var idi, 2018-ci ildə isə bu rəqəm 21.800, 2021-ci ildə isə 21.012 təşkil edirdi [1].

Avropa Şurasının 2021-ci il aprelin 9-da açıqladığı illik hesabata görə, Azərbaycan Avropada ən çox məhbus olan ölkələrdən biridir. Hesabatdan aydın olur ki, indi Azərbaycanda toplam 21 min 12 məhbus cəzasını çəkir. Ölkədə əhalinin hər 100 min nəfərinə 208.7 məhbus düşür. Bir il öncə, yəni 2020-ci ildə 218.2 idi. Bu göstəriciyə görə, hesabatın Avropa məkanında əhatə etdiyi 50-yə yaxın ölkə arasında Azərbaycan ən yüksək 5-ci nəticəyə malikdir [2]. Rəsmi statistikaya görə, Azərbaycanda 1998-ci ildə 9 nəfər, 1999-cu ildə 14 nəfər, 2000-ci ildə 23 nəfər, 2001-ci ildə 19 nəfər, 2002-ci ildə 23 nəfər, 2003-cü ildə 21 nəfər, 2004-cü ildə 20 nəfər, 2005-ci ildə 13 nəfər, 2006-cı ildə 9 nəfər, 2007-ci ildə 18 nəfər, 2009-cu ildə 12 nəfər, 2010-cu ildə 15 nəfər, 2011-ci ildə 4 nəfər, 2012-ci ildə 9 nəfər, 2013-cü ildə 15 nəfər, 2014-cü ildə 13 nəfər, 2015-ci ildə 4 nəfər, 2016-cı ildə 10 nəfər, 2017-ci ildə 5 nəfər, 2018-ci ildə 7 nəfər 2019-cu ildə 5, 2020-ci ildə isə 5 nəfər ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilib [3]. AR CM-in 82 maddəsinə görə, əfv etməni AR Prezidenti həyata keçirir [4], ömürlük azadlıqdan məhrum edilmiş

şəxslərin son illərin əfv etmə statistikasına nəzər yetirsək, görərik ki, Azərbaycan Respublikası Prezidentinin məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında 2018-ci il 137 nömrəli sərəncamında həmin kateqoriyadan olan məhkumlar yer almayıb, 2019-cu il 1049 nömrəli əfv haqqında sərəncamında ömürlük azadlıqdan məhrum edilmiş 3 məhkum əfv edilib, onlardan biri 25 il, digər ikisinin cəzası 20 il azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilib, 2020-ci il 1970 nömrəli sərəncamda həmin kateqoriya məhkumlar yer alamayıb, 2021-ci il 2545 nömrəli əfv haqqında sərəncamda ömürlük azadlıqdan məhrum edilmiş 3 məhkum əfv edilərək cəzaları 25 il azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilmişdir [5].

Bildiyimiz kimi, Azrbaycan Respublikası Cinayət Məcəlləsinin 42-ci maddəsi **Cəzanın növləri** adlanan maddəsində cəzaların vahid siyahısı verilib və bu siyahıda ağırlıq dərəcəsinə görə zirvədə Ömürlük azadlıqdan mərhumetmə cəza növü dəyanır, 1998 –ci ildə ölüm cəzası ləğv edildikdən sonra CM-nə daxil edilmişdir. Onu da qeyd etmək istərdim ki, sonuncu ölüm cəzası 1993-cü ildə icra edilmişdir. 1998-ci ildə ölüm cəzası ləğv edildikdə, 128 nəfər ölüm cəzasına məhkum edilmiş şəxs var idi və onlar əfv edilərək barələrində ömürlük azadlıqdan məhrumetmə cəzası tətbiq edilmişdir. Maraqlıdır ki, ölüm cəzasını ömürlük azadlıqdan məhrumetmə cəzası ilə əvəzləmə doğurdan da əfv etmə hesab etmək olar? Həmin vaxt elə indi də belə bir yanaşma mövcuddur ki, ölüm cəzası ilə ömürlük azdlıqdan məhrumetmə bir-birindən fərqlənmir və birini digərindən daha humanist cəza növü kimi hesab etmək olmaz. Ümumiyyətlə, ölüm cəzası yoxsa ömürlük azadlıqdan məhrum etmə? Hansını daha düzgün və effektiv hesab etmək olar? Cəmiyyətdə iki fərqli yanaşma mövcuddur ki, cəmiyyətin bir qismi ölüm cəzasının lehinə, digər qismi isə ömürlük azadlıqdan məhrumetmə cəzasının lehinə çıxış edir və reallıq onu göstərir ki, bu hələ uzun müddət aktual olaraq qalacaq. Ümumdünya İnsan hüquqları Bəyannaməsinin 3-cü maddəsində deyilir ki, hər bir insan yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir. Ömürlük azadlıqdan məhrumetmə cəzasının lehinə olanların fikirincə ölüm cəzası cinayətkarlığın azalmasına təsir etmir. O.E.İşenko hesab edir ki, ömürlük azadlıqdan məhrumetmə cəzasını ölüm cəzasının alternativi kimi qəbul etmək olar və bu müasir hüquqi dövlətin və demokratik cəmiyətin daxili siyasətini insanların əsas və ayrılmaz konstitusion hüquqlarına yönəldiyinin göstəricisidir. Ölüm cəzasından fərqli olaraq, ömürlük azadlıqdan məhrumetmə geri dönməz nəticələrə malik deyil və dövlətin daxili siyasəti sahəsində sosial ədalət prinsipini əks etdirən cinayətkarlığa qarşı mübarizədə cəmiyyət üçün humanist məqsədləri əks etdirir [6]. Ölüm cəzasının lehinə çıxış edənlər isə öz növbəsində ömürlük azadlıqdan məhrumetmə cəzasını ədalətsiz, artıq yerə dövlətin iqtisadiyyatını yükləyən, mənəviyyatsız və qeyri-humanist cəza hesab edillər [7]. Cəza olaraq ölüm cəzası ən qədim cəza növlərindən biridir. Ölüm cəzası talion prinsipinin, yəni gözə-göz, dişə-diş prinsipinin realizəsi çərçivəsində yaranmışdır və həmin zaman cəmiyyətdə qana-qan prinsipləri üstünlük təşkil edirdi. Hal-hazırda Kavkaz xalq-

larında həmin prinsipə hələ də rast gəlmək olar. İnkişaf etmiş dövlətlərdə ölüm cəzasının icrasından öncə uzun vaxt çəkən məhkəmə araşdırılması aparılır ki, gələcəkdə istintaq və məhkəmə səhvliyi nəticəsində təqsirsiz şəxs həmin cəzaya məruz qalmasın. Bu da onunla nəticələnirdi ki, məhkəmə hökmü ilə onun icrası arasında neçə illər, hətta on illər keçir. Məsələn, ABŞ-da (Corciya ştatı) Cek Alderman 1975-ci il iyunun 14-də 24 yaşında həyat yoldaşını qətlə yetirdiyinə görə ölüm cəzasına məhkum edilmişdir, yalnız 2008-ci il sentyabrın 16-da 57 yaşında edam edilmişdir. 33 ildən sonra. Ümumiyyətlə,ölüm cəzasını pratiki tətbiq edən dövlətlər: Çin, İran, Səudiyyə Ərəbistan, İraq, Pakistan, Somali, ABŞ, Misir, İyordaniya, Kuveyt, Banqladeş, Əfqanıstan, Şimali Koreya, Malaziya, Yaponiya, Cənubi Sudan, Baxreyn, Sinqapur, Belarussiya, Yamən, BƏƏ və Siriyadır. Demokratiyanın beşiyi hesab edilən ABŞ-da hələ də ölüm cəzasının mövcudluğu birmənalı qarşılanmır. Belarusiya, Avropa və MDB yeganə ölüm cəzası tətbiq edən dövlətdir. Ölüm cəzasını ən çox tətbiq edən isə Çindir, ikinci yerdə Səudiyyə Ərəbistan, üçüncü yerdə isə İraq Respublikası dayanır [8].

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 57-ci maddəsinin məzmununa görə, ölüm cəzası yalnız sülh və insanlıq əleyhinə, müharibə cinayətləri ilə əlaqədar, şəxsiyyət, ictimai təhlükəsizlik və ictimai qayda və dövlət hakimiyyəti əleyhinə törədilmiş, xüsusilə ağır cinayətlərə görə müəyyən edilir. Maraq doğuran məsələlərdən biri də budur ki, CM-in 277-ci Dövlət xadiminin və ya ictimai xadimin həyatına **sui-qəsd** maddəsi ilə bağlıdır. Belə ki, bu maddənin sanksiyasında on dörd ildən iyirmi ilə qədər ömürlük azadlıqdan məhrumetmə və ya ömürlük azadlıqdan məhrumetmə cəzaları nəzərdə tutulub, çox maraqlıdı insan ölümünə səbəb olmayan bu məddənin sanksiyasında ömürlük azadlıqdan məhrumetmə cəzasının nəzərdə tutulması nə qədər hüquqi cəhətdən düzgün hesab etmək olar? Yəni 20 il azadlıqdan məhrumetmə cəzası kifayət deyil mi? Hesab edirik ki, bu maddə müstəqil araşdırma predmeti ola bilər.

**1)** Qadınlara **2)** Cinayət törədərkən 18 yaşı tamam olmamış şəxslər və **3)** Hökm çıxarılana qədər 65 yaşına çatmış kişilərə ömürlük azadlıqdan mərhum etmə cəza növü tətbiq edilmir. Yəqin ki, ayrı-ayrılıqda hər kateqoriyanı mübahisələndirmək olar, lakin hüquqi cəhətdən ən mübahisəli ömürlük azadlıqdan mərhumetmə cəzasının tətbiq edilmədiyi qadınlar kateqoriyasıdır. Belə ki, bütün müasir qərb dövlətələrində belə bir fərqləndirmə nəzərdə tutulmamışdır (yalnız MDB dövlətlərində belə yanaşma mövcuddur). Bəlkə də mental dəyərlər baxımından və cəmiyyətin digər spesifik xüsusiyyətlərinə görə bu normal və başa düşüləndir, lakin məsələyə hüquqi kontekstdə baxdıqda, bunu heç bir halda izah etmək mümkün deyil. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsi Bərabərlik hüququ adlanır. Həmin maddənin II hissəsində deyilir ki, **kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır.** Konstitusiyanın 25-ci maddəsinə söykənən AR CM-in 6-cı maddəsi Qanun qarşısında bərabərlik prinsipi adlanır [9].

Həmin maddədə qeyd olunur ki, cinayət törətmiş şəxslər qanun qarşısında bərabərdirlər və irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən,

mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən və digər hallardan asılı olmayaraq, cinayət məsuliyyətinə cəlb olunurlar. Digər ikinci kateqoriya, yəni hansında ki, ömürlük azadlıqdan mərhumetmə tətbiq edilmir və onlar Cinayət törədərkən **18 yaşı** tamam olmamış şəxslərdir, burada da xarici dövlətlərin nəzəriyyə və praktikasına toxunsaq görərik ki, Çin Respublikasında və Fransada 16 yaşdan həmin cəza növü tətbiq edilə bilər. Həmçinin bu siyahıda ABŞ-ı da görmək olar. Belə ki, ABŞ-da da yetkinlik yaşına çatmayanlar bu cəzaya məhkum edilə bilərlər. Təbii ki, dediklərimiz müstəsna hallarda tətbiq edilir və hesab edirəm ki, bizim qanunvericilikdə də yaş həddi 16 yaşa endirilə bilər. Norvec, İslandiya, Braziliya, İspaniya, Serbiya, Xorvatiya, Venesuella və sair ölkələrdə, ümumiyyətlə, ömürlük azadlıqdan mərhumetmə cəzası nəzərdə tutulmayıb. Birinci problem ömürlük azadlıqdan məhrum etmənin əsas xüsusiyyəti – müddətsiz olması ilə bağlıdır, yəni bu cəza məhkumun ölümünə qədər çəkilir.

Ömürlük cəzanın çəkilməsi prosesində əsasən də birinci mərhələdə, azadlığa çıxma perspektivi olmadığı halda, sərt həbs şəraiti ilə üzləşən bir çox məhkumlar güclü depressiyaya düşürlər, ümidsizlik hisləri keçirir, intihara meyl göstərir, onlar ölüm cəzasının tətbiq edilməsi üçün vəsatətlər göndərirlər. AR CİM-in 121-ci maddəsinə əsasən, məhkumlar kameralarda, bir qayda olaraq, iki nəfərdən çox olmamaqla; zəruri hallarda, həbsxana müdriyyətinin əsaslandırılmış qərarı ilə bir nəfərlik kameralarda saxlanıla bilərlər [10]. Uzunmüddətli təcrid insan psixikasına mənfi təsir göstərir və ömürlük cəza çəkən şəxs üçün geri dönməz proseslərə səbəb olur.

Cəza-İcra Məcəlləsinin müddəalarına nəzər yetirsək həqiqətən də şəraitin və qaydaların çətin olduğunu görə bilərik. Məsələn, AR CİM–in 122 ci maddəsinə əsasən ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda 25 manatadək miqdarda pul xərcləyə bilərlər, il ərzində qısamüddətli altı görüş və uzunmüddətli iki görüş almaq hüququna malikdirlər. Onu da qeyd edək ki, il bir il 365 gündən ibarətdir, hər gün bir saat gəzinti hüququna malikdirlər, il ərzində dörd bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər. AR CİM–in 122.2-ci maddəsinə görə Məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda və əməyə vicdanla yanaşdıqda, təyin olunmuş cəzadan ən azı on il keçdikdən sonra onların saxlanılması şəraiti yaxşılaşdırıla bilər. İntihar baxımından bu insanlar ən problemli kateqoriyalardan biridir. Ömürlük azadlıqdan məhrum edilmiş şəxslərin sayının getdikcə artması bu kateqoriyadan olan şəxslərə psixoloji dəstək, onlarla işləmək üçün kadrların peşəkar və psixoloji hazırlığı məsələlərini ictimaiyyət qarşısında aktuallaşdırır. Ömürlük azdlıqdan məhrumetmə cəzasına məhkum edilmiş şəxslər fiziki və ən əsası psixi və mənəvi qapanma halından əziyyət çəkirlər, çox hissəsi qaçmağa cəza çəkmə müəssisələrinin əməkdaşlarına hücum etməyə, girov götürməyə, intihara meylli və özünə zərər vermə riski yüksək olan, aşkar psixopatik xüsusiyyətləri olan məhkumlardır.

AR CM-in 57.3-cü maddəsinə əsasən, məhkəmə, ömürlük azadlıqdan məhrumetmə növündə cəza çəkən məhkumun azadlıqdan məhrum etmənin **ən azı iyirmi beş ilini həqiqətən çəkdiyini,** həmçinin onun bu cəzanı çəkdiyi müddətdə qəsdən cinayət törətmədiyini nəzərə alaraq və məhkumun həmin cəzanı çəkməsinə daha lüzum olmadığı qənaətinə gələrsə, ömürlük azadlıqdan məhrumetmə cəza növünü müəyyən müddətə azadlıqdan məhrumetmə ilə əvəz edə və ya onu bu cəzadan şərti olaraq vaxtından əvvəl azad edə bilər. Bununla belə, ömürlük azadlıqdan məhrum edilmiş məhbusların islah olunması və onların şərti azadlığa buraxılmasının düzgünlüyü sual altındadır. Lap ehtimal etsək ki, ömürlük azadlıqdan məhrum edilmiş şəxs 25 ildən sonra azadlığa çıxarsa bu zaman onu nə gözləyir? Artıq pensiya yaşına çatmış və ya ona çox az qalmış bir yaşda olacaq, bu zaman məhkum əmək və özünü təmin etmək qabiliyyətini itirəcək və nəticədə, psixoloji və fizioloji dəyişikliklər baş verəcək. AR CİM-in **103 maddəsi Cəza çəkmə müəssisələrində məhkumların özfəaliyyət təşkilatları** adlanır. Həmin özfəaliyyət təşkilatlarının məqsədi: **1)** məhkumların islah edilməsinə, tərbiyəsinə, onların mənəvi və fiziki inkşafına köməklik göstərmək. **2)** Məhkumlarda müsbət vərdişləri inkişaf etdirmək və onların faydalı təşəbbüskarlığını həvəsləndirmək. **3)** cəzaçəkmə müəssisəsində əməyin, məişət şəraitinin və asudə vaxtın səmərəli keçməsinin təşkili məsələlərinin həllində iştrak etmək. **4)** məhkumlar arasında intizamı möhkəmləndirmək və onların bir-birinə qarşılıqlı müsbət münasibətlərini formalaşdırmaq çıxış edir. **Həmin məddənin 103.1-ci** hissəsinə diqqət etdikdə özfəaliyyət təşkilatlarının ömürlük azadlıqdan məhrumetmə növündə cəzaya məhkum olunmuş şəxslərə şamil edilməməsini görürük. **Daha sonra CİM-in 104-cü maddəsinə nəzər yetirək həmin maddə Müəyyən müddətə azadlıqdan mərhum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin ümumi təhsili adlanır**, lakin burada da həmin maddənin **104.6-cı** hissəsinə görə ömürlük azadlıqdan mərhum edilmiş şəxslər ümumi təhsilə cəlb olunmurlar. Həqiqətən də, təhsil və özfəaliyyət təşkilatları məhkumların islah edilməsinə onların müsbət dəyişilməsinə və cəmiyyətə sağalaraq qayıtmasında müstəsna rol oynayır. CM-in 41-ci maddəsi **Cəzanın anlayışı və məqsədi** adlanır həmin maddənin 41.2-ci hissəsinə görə cəzanın məqsədləri sırasında məhkumun islah edilməsidə öz əksini tapır, belə olan halda tam haqlı bir sual yaranır – ömürlük azadlıqdan məhrum edilmiş şəxslərə münasibətdə islah məqsədi nədən nəzərdə tutulmayıb? Bəli, məhz nəzərdə tutulmayıb, çünki həmin yuxarda qeyd etdiyimiz özfəaliyyət və ümumi təhsil həmin kateqoriyadan olan məhkumlara şamil edilmir. Bu o demək deyilmi ki, biz artıq onlardan imtina etmişik və ya onların itirilməsi ilə razılaşmışıq? Hesab edirik ki, ən azından hüquqi konteksdə belə yanaşma düzgün deyil və mövcud cinayət qanunvericiliyinə, ümumiyyətlə, cəmiyyətimizin hüquqi konstruksiyasına ziddir.

Həbsxənada qaldıqları illər ərzində məhkumlar sosial əlaqələrini itirir, sosial uyğunsuzluq artır, heç bir əhəmiyyətli olan yaşamaq perspektivi qalmır. Təcrübə göstərir ki, məhkumlar bu qədər uzun müddətə azadlıqdan məhrum

edilərkən çox vaxt nəinki islah olmurlar, əksinə onların şəxsi keyfiyyətlərinin deqradasiyası baş verir. Maraqlıdır ki, bu kateqoriyadan olan şəxslərin saxlandığı müəssisələrin əməkdaşlarının fikrincə, ömürlük azadlıqdan məhrum edilmiş məhbusların ümumi sayının çox az bir hissəsi sosial şəxs kimi düşünmək və özünü idarə etmək qabiliyyətini saxlayır. Məhkumların əksəriyyəti geri dönməz formada reqress edilər.

Xarici ölkələrdə ömürlük azadlıqdan məhrumetmə cəzası çəkən şəxslərin müraciət etmə hüququ müxtəlif kriteriyalara görə fərqlənir. Məsələn, yaşa görə Finlandiyada 21 yaşdan aşağı olan məhkumlar cəzalarının 10 ilini çəkdikdən sonra müraciət edə bilələr, digər məhkumlar isə 12 il cəza çəkdikdən sonra bu hüquq yaranır, Çexiyada ümumi 20 ildən sonra müraciət etmək olar, lakin residivist cinayətkarlarda bu hüquq 30 ildən sonra yaranır [11]. Fikrimizcə bizim cinayət qanunvericiliyində də ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş şəxslər üçün cəzalarının müəyyən müddətə azdlıqdan məhrumetmə cəzası ilə əvəz edilməsi və cəzadan şərti olaraq vaxtından əvvəl azad olunması üçün müraciət etmək qaydaları müəyyən kriteriyalara görə fərqləndirilməli və daha real olmalıdır.

Azərbaycanda həbs həyatı yaşayanlardan 284 nəfəri ömürlük həbs cəzasına məhkum edilib. CİM-in 66.1-ci maddəsində Cəzaçəkmə müəssisələrin növləri göstərilib. Burada həbsxanalar da var, CM-in 56.1.5-ci maddəsinə görə ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş şəxslər cəzalarını məhz həbsxanalarda çəkir. AR CİM-in 120-ci maddəsinə görə həbsxanalarda **xüsusilə ağır cinayətlər törətməyə görə beş ildən artıq müddətə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər, cəza müddətini tam və ya onun bir hissəsini çəkməklə cinayətlərin xüsusi təhlükəli residivinə görə məhkum olunmuş şəxslər, ömürlük azadlıqdan məhrumetmə növündə cəzaya məhkum olunmuş şəxslər, ümumi, ciddi və xüsusi rejimli cəzaçəkmə müəssisələrindən cəzanın icrası qaydalarını qərəzli pozduqları üçün həbsxanaya keçirilmiş məhkumlar saxlanılırlar.** Gördüyümüz kimi AR CİM-in 120 maddəsinin məzmununa görə xüsusi təhlükəli residivə görə məhkum olunmuş şəxslər **tam** və ya onun bir hissəsini çəkməklə həbsxanalarda saxlanıla bilərlər, lakin AR CM-in 56.2-ci maddəsinə görə xüsusilə ağır cinayət törətməyə görə beş ildən artıq müddətə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər üçün, habelə cinayətlərin xüsusi təhlükəli residivi zamanı **cəzanın bir hissəsinin** həbsxanada çəkilməsi müəyyən edilə bilər. Beləliklə, AR CM-in 56.2-ci maddəsi ilə AR CİM-in 120 maddəsi arasında xüsusi təhlükəli residivə görə həbsxanalarda cəza çəkməyin müddətləri arasında fərq vardır, belə ki, AR CM-in 56.2 maddəsinə görə cəzanın yalnız bir hissəsi həbsxanalarda çəkilə bildiyi halda, AR CİM-in 120 maddəsində cəzanın tək bir hissəsi yox, həm də tam şəkildə çəkilə biləcəyi göstərilmişdir.

Həbsxanalardan danışdıqda qeyd etmək lazımdır ki, Azərbaycanda həbsxana növündə bir cəza çəkmə müəssisəsi var, o da Qobustan həbsxanasıdır – 70 km aralıda Bakının Qaradağ rayonunda çətin gedilən düzənlikdə yerləşir,

jarqon dilində "КРЫТКА" adlandırılır. Sözügedən həbsxana 700 məhkumun saxlanılması üçün nəzərdə tutulub (SSRİ zamanı Şuşa şəhərində həbsxana mövcud idi). Əlverişsiz iqlimə görə və əsasən də qobustan petroqliflər muzeyinin UNESCO tərəfindən siyahıya alınarkən həbsxananın muzeyə yaxın olması səbəbindən onun oradan köçürülmə məsələsi gündəmə gəlmişdi və 2021-ci ilə artıq həmin həbsxana Umbakiya köçürülməli idi, lakin hələ də bu baş verməyib. Yəqin ki, hər bir həbsxanadan qaçış və ya qaçmaq cəhdi olubdur. Mənim əldə etdiyim məlumata görə, Qobustan həbsxanasından qaçmaq cəhdi 2008-ci ildə edilib, o zaman mühafizəçilər iyunun 21-də 4 saylı korpusdan iki ömürlük məhbusun qazdığı çoxmetrlik tuneli aşkar etmişdilər.

Ümumiyyətlə, cəza institutu və cəzaların növləri hər bir cəmiyyətin inkişaf mərhələsinə, spesifik, milli, mədəni, mental vəziyyətinə uyğun olmalıdır. Yalnız belə bir yanaşma ilə AR CM-in 41-ci maddəsində nəzərdə tutulmuş cəzanın məqsədlərinə çatmaq olar. Yuxarda da qeyd etdiyimiz kimi hal-hazırda ilk Konstitusiyanın vətəni ABŞ dünyada hüququn, demokratiyanın beşiyi hesab edilir, lakin bunlara baxmayaraq, ABŞ ölüm cəzasını hələ də praktik tətbiq edən dövlətdir, yəqin ki, buna da səbəb məhz reallıqlardır.

**ƏDƏBİYYAT**


1. https://report.az/hadise/azerbaycanda-mehkumlarin-sayi-aciqlanib/
2. https://azpolitika.info/?p=637608
3. https://avtosfer.az/az/gundem/hebsxanalarda-olum-gunlerini-gozleyenler-statistika-61023
4. AR Cinayət Məcəlləsi. – Bakı: Hüquq Yayın Evi, - 2019.
5. https://e-qanun.az/result....
6. Ищенко О.Е. Пожизненное лишение свободы как вид уголовного наказания в России и практика его применения. // Российский следователь, - 2013. №18, - с.14-17.
7. Карпец И.И. Преступность: иллюзии и реальность. – Москва: - 1992, - с.57-59.
8. https://ru.wikipedia.org/wiki/
9. AR Konstitusiyası. – Bakı: Hüquq Yayın Evi, - 2019.
10. AR Cəzaların İcrası Məcəlləsi. – Bakı: Hüquq Yayın Evi, - 2019.
11. https://ru.wikipedia.org/wiki/


## ВОПРОСЫ ТЕОРИИ И ИСПОЛНЕНИЯ НАКАЗАНИЯ В ВИДЕ ПОЖИЗНЕННОГО ЛИШЕНИЯ СВОБОДЫ


**Г.Р.ДЖАФАРОВ**


**РЕЗЮМЕ**


В данной статье исследуются понятия пожизненного лишения свободы в системе наказания Уголовного Законодательства Азербайджанской Республики, существующие проблемы его практического применения, выявления отличительных черт со смертной казнью. Были рассмотрены правила режима, применяемые к данному виду наказания, вопросы исполнения наказания по Уголовно-Исполнительному законодательству Азербайджанской Республики. Проведено исследование статистических данных, а также практическое и научное сравнение с теорией и практикой зарубежных стран.



**Ключевые слова:** уголовно-исполнительный кодекс, уголовный кодекс, система наказаний, пожизненное лишение свободы, смертная казнь, помилование, исправление осужденных, учреждения по отбыванию наказаний, пожизненное лишение свободы в зарубежных странах.

## ISSUES OF THEORY AND EXECUTION OF LIFE IMPRISONMENT

**H.R.JAFAROV**

**SUMMARY**

This article explores the concepts of life imprisonment in the penal system of the Criminal Legislation of the Republic of Azerbaijan, the existing problems of its application, identification and study of distinctive features with the death penalty. The rules of the regime applicable and not applicable to this type of punishment, the issues of execution of this punishment under the Criminal Executive Legislation of the Republic of Azerbaijan were considered. A study of statistical data as well as a practical and scientific comparison with the theory and practice of foreign countries was carried out.

**Keywords:** criminal executive code, criminal code, punishment system, life imprisonment, death penalty, pardon, correction of convicts, penal institutions, prison, number of convicts, life imprisonment in foreign countries.